UOT 94(429/24)

# SON 100 İLDƏ ERMƏNİ VƏHŞİLİKLƏRİ

**M.O.SADIQOV**
***AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu***
***mamedsadiqov@yahoo.com***

*Erməni millәti tarix boyu dünya ölkələrinə səpələnmiş, özlərinin taleyüklü arzu və istəklərini gerçəkləşdirmək üçün türk dövlətləri, müsəlman tayfaları yaşayan coğrafi ərazilərə iddialı olmuş, yeri gəldikdə öz məqsədlərinə çatmaq üçün əldən-ayaqdan çıxmışlar. Türklərə, türkçülüyə aid olan hər bir müsbət varlığı özlərininki hesab etməyə çalışmışlar.*

*Məqalədə ermənilərin türk, azərbaycanlı və gürcü millətlərinə qarşı son 100 ildə törətdikləri amansızlıqlar araşdırılaraq elmi izahı verilir.*

*Araşdırmalar və ümumiləşdirmələr göstərir ki, ermənilər genosid məsələsini dünyaya tam obyektivliyi ilə çatdırmamışlar.*

**Açar sözlər:** Vətən tarixi, diaspor, mühacirət, daşnaksütun, turanizm, iranizm

Yegigyan erməni, gürcü, tacik, əfqan, bülluc, fars və sair xalqlar daxil olmaq üzrə, «Ariyan dövləti - müstəqbiləsi»nin hüdudunu Qafqaz dağlarına və uydurma «Böyük Ermənistan»ın «qərb hüdudları»na qədər genişlətməkdədir. Ümumiyyətlə, ermənilərin səsini bütün dünyaya çatdıran, onların təcavüzkar sir-sifətlərinə hiyləgərlik pərdəsi çəkən 1887-1890-cı illərdə Parisdə çıxan «Droşaq» qəzeti olmuşdur.

«Droşaq»ın iddiasına görə, «İran ermənilərin ikinci vətəni və iranlilar arkadaşları olduğu üçün» İranın hürriyyət hərəkatında ermənilər rəhbər «Pişqrağol» (Pişdar) rolunu oynamışlar. Eyni vətənpərəstlik mövcubunca imiş ki, İran ixtilası əsnasında Daşnaksütyun firqəsi (partiyası) Yefremkəri xaçuların təhti komandasında «vətənimiz sahibsiz və əsir qalmış» ünvanlı milli, erməni nəğməsini tərənnüm edərək ixtilalın rəkn-rəkini olurlar.

«Droşaq» əlavə edərək yazır: «…, «Daşnaksütyun» partiyası bu fəaliyyətində şübhəsiz, heç bir növ xüsusi məqsəd və erməni milləti üçün milli mənafe nəzər-etibarı almayır, yalnız İranı əsarət və zülm altından qurtarmağa çalışmaqla vətəni vəzifəsini ifa edirdi». Bu, ermənilərin milli vəzifəsi idi. «Droşaq» daha sonra yazır: «Bu iki milləti daima bir xarici düşmən təhdid etmişdir. Müştərək və ümumi bir düşmən bu iki «arkadaş» millətin həyat işığını keçirməyə səy etmiş və bununla bu iki milləti birləşdirmişdir». Bu düşmən, birinci abzasda qeyd olunduğu kimi, türk millətidir. Ümumiyyətlə, XVIII

əsrin əvvəllərindən XX əsrin 30-40-cı illərinə kimi istər xaricdə nəşr olunan ermənipərəst qəzet və jurnallar (20-yə yaxın təbliğat vasitəsi), istərsə də müxtəlif səpkidə çap olunmuş tarixi-etnoqrafik kitablarda dəfələrlə erməni xalqı ilə fars xalqının bir-birinə yaxın, hətta qohum olduqlarını utanmadan bütün dünyaya yayırdılar.

Əslində bunlar heç də belə qeyd edildiyi kimi deyildirlər. Qəzetin yazdıqlarına görə, Ankara turanizmin mənbəyi və mərkəzi olduğu kimi, Tehran və İsfahan da ariyan nəslinin qardaşlıq və ittifaq mənşəyi, iranizmin mərkəzi olmalıdır. Bunun üçün «Ariyan ocağı» və ya «Ariyan mərkəzi» təşkil etməliyik. Bu mərkəz və ocaq ətrafına «nəcib fars və iranilər, cəngavər kürdlər, cəsur lurlar, billuclar, cəngli kiləkilər, nəhayət, çalışqan və açıqgöz ermənilər» və s. tamam ariyan irqindən millətlər toplanmalı və birləşməlidirlər. Tədricən bu millətlər turanizmin içərisinə soxulmalıdırlar (1, 19-20).

Ermənilər İstanbul və İran əlindən qurtarıb əcnəbi bir tayfa yardımı ilə müstəqil olmağı daim arzu etmişdilər. Bu məqsədlə knyaz Uri Avropa saraylarını dolaşdıqdan sonra böyük Pyotra müraciət etdi. Pyoturdan yardım vədini aldıqdan sonra Ermənistana qayıdan knyaz Uri Həştərxan şəhərində öldü. Böyük Pyotr 1722-ci ildə İran dövləti əleyhinə ordu göndərdi. Bu vuruşma zamanı yalnız Dərbənd işğal olunsa da, böyük Pyotr Qarabağ məliklərinə İran əleyhinə üsyan edib istiqlal vücuda gətirməklərinə imkan vermişdir. İkinci Yekaterina zamanında rus ordusu Ermənistanda çox qalmayıb tez də geri dönmüşdü. Böyük Pyotrun gizli siyasətinə görə, İrandan ermənilər Qafqaza, o cümlədən isə Azərbaycana (Şirvan və Qarabağ mallarına, Gəncəyə və Borçalıya, Gürcüstanın digər ərazilərinə) və s. köçürülməli, əvəzində isə yerli aborigen-türklər İrana köçürməli idi. Rusiya buna tam nail ola bilmədi.

Qeyd üçün bir əsr bundan əvvəl olduğu, yəni 1890-1895-ci illərdə baş tutan konqresdə Rusiya Ermənistanı da, Daşnaksütyun partiyasını da, 1907-ci ildə Vyanada olan üçüncü konqresində sosialist proqramının qəbulu Qafqaz Ermənistanına federasiya təriqi ilə istiqlal tələbinə qalxdı.

V.Pottonun qeyd etdiyi kimi, XVIII əsrin axırları, XIX əsrin əvvəllərində İranda məskən salmış ermənilər farsların təqibinə dözməyərək, onların caynağından çıxmaq üçün bütün var-yoxlarını İranda satıb, ac-yalavac, çətinliklə də olsa, özlərini Azərbaycanın Qarabağ və ətraf bölgələrinə, Gəncə-Borçalı regionlarına, azərbaycanlılar yaşayan ərazilərə soxdular. Onların fikrincə, onlar bu bölgədə qul kimi yaşanmağa da razı idilər. (V.Potto). Məlumat üçün qeyd olunmalıdır ki, bu vaxt Qafqazda Ermənistan adlı dövlət mövcud deyildi. Əlli dörd qəzadan ibarət olan Qafqazın o tayının yalnız beş qəzasında ermənilər əksəriyyət təşkil edirdilər. Hətta Ermənistanın mərkəzi şəhəri İrəvanda belə əhalinin 78-80 %-ə qədərini Azərbaycan türkləri təşkil edirdi. Belə bir şəraitdə bütün Qafqaza hakimiyyət baxımından bulunan, Türkiyədə ağzı yanmış erməni utopistlərinin yeganə işi süni Ermənistan yaratmaq olurdu. Bunun üçün də gürcüləri və türkləri aradan çıxartmaq və əksəriyyət təşkil edən bir erməni əhalisi vücuda gətirməyi lazım görürdü. Bu baxımdan gürcü sosialistlərindən

Qavibinin «Qızıl kitab» əsərində yazılmışdır: «Ermənilər, türklər və gürcülər əsrlər boyu bir yerdə, bir coğrafi regionda yaşadılar və bu müddət ərzində millət ədavəti üzərində qanlı bir hadisə görünməmişdir». Qavibi daha sonra yazır: «Daşnaqlar gəldilər və müstəqil Ermənistan üçün sırf ermənilərlə məskun bir ərazi yaratmaq istədilər» (2, 49). Ermənilərə xas olan məkrli hərəkətlərdən biri də odur ki, onlar çəkinmədən dinc, sadəlövh şəkildə qonşuluq qayğıları göstərən Azərbaycan türkləri və zəhmətkeş türk və gürcü xalqlarına qarşı amansız olmuş, onların bütün əsrlər boyu inkişaf etdirdikləri arxiv, müxtəlif adda sənəd, tarixi abidə incilərinə utanmadan, çəkinmədən sahib çıxmaqları ilə tanınmışlar. Bəşər tarixində, bütün insanlığın amansız, vicdansız düşməni, qatillər qatili Andronik və onun quldur dəstələri başda daşnaksütyun partiyası olmaqla–Türk, Azərbaycan və gürcülərin başlarının kəsilməsi, dişlərinin çəkilməsi, körpələrin şişə çəkilməsi, qadınların və uşaqların, qoca və xəstələrin başına açdıqları ağlasığmaz oyunlar, insanlıq tarixində misli görünməyən işgəncələr və s. bütün dünyaya məlumdur. 1982-ci ildə İstanbulda buraxılmış «Erməni dosyası» adlı kitabda erməni terrorçuları tərəfindən son 40 ildə 20 türk səfirinin öldürülməsi və yüzlərlə türk kəndlərinin oda vurulub yandırılmasında öz əksini tapmışdır. Bu kitabın 1-ci fəsli «Tükənmək bilməyən kin» adlanır. Fəsildə gətirilən faktlara diqqət yetirək. Erməni ekstremistlərinin və terrorçularının türk diplomatlarını alçaqcasına, arxadan vurduqlarının gerçəkliyinə heç kəs şübhə edə birlməz (5, 38-40-42-47).

Camal Anadolun «Erməni dosyesi» kitabı 1982-ci ildə çap olunduğu üçün son 29 ildə erməni terrorçularının murdar əməlləri haqda məlumatlar iki faktdan başqa əks olunmur. Erməni terroristləri və qaniçənləri 8 mart 2011-ci ildə Ağdam rayonu ərazisində öz həyətlərində oynadığı zaman erməni snayperi 9 yaşlı oğlan uşağını atəş açıb öldürdü... Lakin bizim tədqiqatımız nəticəsində 10 nəfərə qədər dövlət və böyük iş adamının öldürülməsi də gündəmə gətirilir.

Silva Kaputikyan, Zori Balayan, Sero Xanzadyan və Eduard Qriqoryan kimi erməni yazarları və işverənləri fürsət düşdükcə genosiddən, yəni soyqırımdan danışırlar. Onlar iddia edirlər ki, guya türklər erməniləri qılıncdan keçirmişlər. Əslində isə həqiqət tamam başqa şeydən xəbər verir. Mərhum Rəfiq Zəka Xəndanın «Ulduz» jurnalının 1990-cı il 2-ci sayında «Xəyala sığmayan vəhşət» adlı məqaləsində Camal Anadolun «Erməni dosyası» adlı kitabından vurğuladığı çox dəhşətli paraqraflardan yan keçmək mümkün deyil… Onun qeydində «Qafqaziyada erməni qətliamları» fəslindən aldığımız abzaslara diqqət yetirək. Nəzərə alın ki, kitabın müəllifi bu faktları yabancı millətlərin nümayəndələrinin əsərlərindən götürmüşdür:

İlk saldırı Bakıda 1905-ci ilin fevral ayında baş vermişdir. Hadisəyə Aşurbəyov soyadlı bir türkün erməni tərəfindən qurşunlanaraq öldürülməsi ilə başlanılır. Daşnaklar türkləri öldürmək, mallarını yağmalamaq, evlərini, iş yerlərini yandırmaq üçün ortaya çıxmışdılar. Komitəçi Nikol əsgəri təlim görmüş Tuman adlı dəstəsiylə Bakıya gəlmiş və türk məhəllələrinə hücuma keçərək, bir çox evin yıxılıb dağılmasına və çox sayda türkün ölümünə səbəb

olmuşdur. Ermənilər sakit etmək məqsədiylə hərəkətə keçən Bakı valisi Nahadzadəni ölümə məhkum etmiş, bunu gerçəkləşdirmək üzrə də Tro adlı bir quldur dəstəsi başçısını vəzifələndirmişdir.

Sivaslı erməni qulduru Murat Hamzasp türklərin çox olduğu Naxçıvan bölgəsində böyük sayda işgəncə və qətliamlara girişmiş və çox sayda türk öldürtmüşdür.

...Qafqaz hadisələrindən sonra baş vali Borontsov – Daşkov Tiflisdə və Peterburqda türk təmsilçilərinə: «Türklərin əxlaqı dəyərlərini bəyəndiyini, Bakı fəlakətində onların suçsuzluqlarından əmin olduğunu» söyləmişdir.

...Türklər Qafqazda, xüsusilə Bakıda mədəniyyət, iqtisadiyyat baxımından hakim durumdaydılar. Ermənilər isə sıradan bir fəhləydilər. Erməni komitələri türkləri əzmək və onların yerlərinə keçmək arzusundaydılar. Daşnaksütyun buraya girən erməni fəhlələrini silahlandırırdı. Bakıda və digər türk qəsəbələrində silah depoları qurdu. Ermənilərin iqtisadi baxımdan etmədiklərini zorla, üsyanlarla və qanlı hadisələr çıxararaq etmək istədi.

Camal Anadol kitabında yeri gəldikcə erməni alimlərinin əsərlərinə də müraciət edir. Vartanyanın «Daşnaksütyun tarixi» kitabından gətirdiyi örnəklərdən birini gündəmə gətirək:

«Qafqaziyanın Türkiyədən fərqi yoxdur. Sason necə isə, Qafqaziya da elədir».

Kitabın «Ərzurum hadisələri» fəslini həyəcansız, ürəkağrısız oxumaq imkansızdır. Kişisiz qalmış oylaqlarda, başıpapaqlısı olmayan evlərdə daşnakların etdiyi vəhşiliklər, alçaqlıqlar normal adamın az qala ağlını başından çıxarır. Burada da erməni qaynaqlarından faydalanmanın müxtəlif tutarlı dəlillərlə qanlı hadisələri gözlərimiz önündə bircə-bircə canlandırılır.

Ərzurum hadisələri minlərlə günahsız türk övladlarının işgəncələrlə məhv edilməsindən yaranmışdı. Kitabın 132-ci səhifəsində oxuyuruq:

"Ərzurum deputatı" olaraq Osmanlı Məbusan (deputatlar) məclisinə qatılmış olan erməni Karakin Pastırmacıyan başına keçdiyi Tero-Çeho komitəsi ilə türklərə ən alçaq işgəncələr etdirmiş və toplu halda öldürtmüşdür. Ermənilər Birinci dünya müharibəsi illərində Ərzurumun, eləcə də kəndlərində türkləri məscidlərə, evlərə dolduraraq yandırmış və ya bombalamışdılar.

Erməni komutanı, insan qəssabı məşhur alçaq Andronik Ciftəminarələrdə türkcə danışaraq təminat verib, xalqın evlərindən çıxmalarını təşkil edərək tələ qurmaq surətiylə qətl etdirmişdir.

«Ermənilər qətliam (genosid) etmişlər... Şəhərə gəldiyimizdə binalardan dumanlar çıxır, bəzi evlərdən ölülərimizin qoxuları gəlirdi. Böyük evlər, məktəblər insanlarla doldurulub, üzərlərinə atəş edilmiş, süngülənmişlər və içəridə sağ qalanlar vardır deyə də, qaz töküb yandırmışdılar...»

Bu hadisə türk əsgərinin Ərzuruma gəlişindən bir gün əvvəl cərəyan etmişdi. Beləliklə, Uzun Əhməd dərəsi Ərzurum xalqının ölüləri ilə doldurulmuşdu. Yaylım atəşdən sonra süngülənmişlər, sağ qalanlar varsa, ortaya çıxsınlar deyə, türk əsgərini təqlid edərək azan oxumuşdular.

Həsənqala yolu üzərindəki kəndlərdən Sarıqamışa qədər qətliam edilmişdi. Burada öldürülən türklərin sayı 80 mindən artıq idi.

Ermənilər Peneskert, Örək, Çolagir, Oğdadan, Kamis kəndlərinə hücum edərək, «Osmanlı əsgərlərini siz çağırmışdınız!» deyə uşaqları öldürdülər, qadınların irzlərinə keçdilər, körpələri ata-analarının gözləri önündə parçalayırdılar. Peneskir kəndində qocaları məscidin önünə topladılar. Ətrafına silahlı erməni əsgərləri qoydular, bundan sonra kəndin içinə dağılaraq, evləri talan etdilər. Qadınların namuslarını ayaqlar altına atdılar və kiçik uşaqları da öldürdülər. Qeyd etmək lazımdır ki, ermənilər Tortumda irz və namus tanımadan zülmlərinə zülm qatmışlar, 21 mart 1918-ci ildə Tortumda öldürülən türklərin sayı 25.000 olmuşdur. Olur, Şəms, Eşkens, Hontus, Məzhərk və s. kəndlərin əhalisinə zülm və işgəncələrlə qadınların irzlərinə keçilərək öldürülmüşdülər. Qocaların boyunlarına ip taxılaraq küçələrdə sürüklənmişdilər. Ərzurumdakı erməni təxribat və zülmləri haqqında sorğu-sual etməklə görəvli komissiya aşağıdakı raportu vermişdir:

Rus komutanına etdiyimiz müraciətimiz də heç bir nəticə verməmişdir. Çünki ruslar ermənilərin bu vəhşiliklərinə göz yumur və bəzən də onlarla bərabər olurdular. Ermənilər öz murdar hərəkətlərini 28 may 1916-cı ildə Tərcan qəzasının mərkəzi olan Mamaxatun qəsəbəsində də həyata keçirdilər. Məzmunca eyni, formaca müxtəlif olan vəhşilikləri erməni quldurları ardı-arası kəsilmədən Axtaş, Hoğik, Pəkric, Çıldır, Ardahan, Göle, Hanak, Hacıxəlil, Qarapınar, Çamurlu, Ağdərə, Gölbaşı, Bərəlik, Aynalı, Qızılçakçak və onlarca başqa kəndlərdə, qəsəbələrdə ağılasığmaz cəlladlıqlar, vəhşiliklər, insanlıq adına ləkə gətirən yaramazlıqlar törətmişlər. Bu tip genosid xarakterli faciələr haqqında Türkiyənin «Bəsirət» qəzetinin 1918-ci il 219-cu nömrəsində də üzləşirik.

«Bir dəstə daşnak saldatları və bir dəstə Şaumyan adamları «Cəmiyyəti xeyriyyə»nin qarşısına gəlib o binayi-müqəddəsə, o möhtəşəm imarətə, o müəzzəm binaya xainanə bir surətdə od vururlar, onu yandırırlar».

Yenə də «Bəsirət»in 220-ci nömrəsində:

«... Qanlı Nikolayların dövründə görünməyən zülümlər bizə bu gün mart ayının 18-21 günləri arasında rəva görüldü...10 minlərlə müsəlmanın qanı axıdılmışdı... Hər kəs ağlayır, hər kəs balam vay, deyirdi».

Nəticə etibarilə qeyd olunmalıdır ki, ermənilərin bu tip vəhşiliklərini tarix boyu dəstəkləyən və onlara arxa duran məhz ruslar, ermənipərəst ruslar və bu qəbilədən olan xarici vətəndaşlar olmuşdur... Rus ədəbiyyatında ermənilərin birinci muzdlu saxtakarı Senkovski baron Brambeus ləqəbi altında yazıb-yaradan ziyalısı olmuşdur. Sonradan «erməni tarixçisi» Emin (Moisey Xorenskinin tarixi), Xudobaşov (Ermənistanın icmalı), daha sonralar Yeritsova (Qafqaz diyarı, 1872-ci il, 1) və Arqutinski – Dolqorukov (1880-1890). Bu müəlliflər 3 müxtəlif dövrlərdə utanmadan, çəkinmədən üzlərinə qırmızı pərdə çəkərək gürcülərə və Azərbaycan türklərinə aid olan Saatabaqo, yəni Cakeli atabəy, indiki Axalsix qəzasının tarixi varlığına sahib çıxmaq, bu ərazilərin onlara aid olduğunu saxta sənədlərlə sübuta yetirirlər.

Geniş oxucu kütləsinə çatdırmaq istəyirik ki, hər hansı bir qafqazlı bilir ki, Axalsix qəzasında (Adıgün, Aspinza, Azğur, Ahıkələk və s.) Axısxa və Azərbaycan türkləri ilə yanaşı gürcülərə də rast gəlmək olur və burada dahi çar Tamaranın izləri vardır. Ermənilər isə bu qəzaya yalnız və yalnız XIX əsrin ikinci yarısında Türkiyədən qaçqın kimi gəlmişlər (3).

Daha başqa bir əhvaltı olduğu kimi qeyd etmək istərdik. Tiflis şəhərində erməni-gürcü münasibətlərindən və bu iki millətin qonşuluğundan danışanda «Tetrs»in müxbiri Kutuli istər-istəməz yada düşür. Kutuli Tiflisə təzə gəlmişdir ki, «Mşaq» qəzetinin redaktoru, donqabel, əyriburun, hiyləgər, professional siyasətçi və təbliğatçı Kutulini ələ alıb, onu hər gün qonaq edib, yedizdiribiçizdirmiş, şəhərin gəzməli-görməli yerlərini ona göstərmiş, küçədən keçən hər bir qəşəng Azərbaycan Türklərinin qız və qadınlarını erməni kimi ona təqdim edib tərifləmiş, ən çirkin heç bir xarici görünüşü olmayan erməni qız və qadınlarını isə gürcü və Azərbaycan türkü rolunda təqdim etmişdir.

İran şahı Ağa Məhəmməd xana qarşı gürcülərdən və borçalılardan satqınlıq əlaməti göstərərək, öz ermənilərini tədricən bu məmləkətə tam yerləşdirilməsi həyata keçirildi. Erməni bəylərinin, katoliklərin (arxiyepiskop İosif) və Arqutyanların satqınlığı nəticəsində İran şahı Tiflisi 1795-ci ildə talan edib, əhalisini isə girov götürmüşdür. Sankt-Peterburq Universitetinin professoru A.A.Tsaqareli qeyd edir ki, erməni «parazitləri» Gürcüstan və onun Borçalı qəzası ilə kifayətlənməyib 1796-cı ilin yayında başda erməni arxiyepiskop İosif olmaqla Dərbənd xanlığına müxtəlif variantlarda siyasi hiyləgərlik göstərərək bütün müsəlmanları öz üzərinə qaldırdı. Katolikosun niyəti siyasi baxımdan Dərbənd müsəlmanları erməni satqınlarının ayağı altına düşməli, onların mənəviyyatını alçaltmaqdan ibarət idi. Göründüyü kimi, kilsə «aforizminin» bu siyasəti baş tutmur və o, başqa siyasi oyunlara qoşulur. Erməni millətçiləri öz murdar və şovinist xarakterli əməllərini həyata keçirmək üçün gecə və gündüz dünyaya car çəkirlər ki, 1915-ci ildə türklər iki milyona yaxın erməni gəbərtmişlər (4, 145, 146). Buradan belə çıxır ki, 1915-ci ildən öncə dünyada iki milyondan artıq erməni olmuşdur. Halbuki dünya statistik məlumatı bildirir ki, o zaman yer üzərində 1 mln.300 min erməni varmış. Bu barədə, amerika aliminin söylədiyi kimi, bu yalan yalnız o zaman gerçək ola bilərdi ki, Türklər hər ermənini iki dəfə öldürmüş olaydılar və bu gün yer üzərində bir erməni də qalmayaydı.

Dağlıq Qarabağ hadisələri 70 il əvvəlki yalanları yenidən üzə çıxardı. İftiraçı, böhtançı, qərəzçi dədələrinin sadiq törəmələri bu gün də yalanlar quraşdırmaqdadırlar.

## ƏDƏBİYYAT

1. Məmmədzadə M.B. Ermənilər və İran. Bakı: Azərnəşr, 1993, 178 s.
2.Qavibi. Qızıl kitab. Tiflis; Sabcotan Sakartvelos. 1975, 219 s.
3. Potto V. «Ermənistanın dirçəlişi». Paris: 1904, 421 s.
4. Məmməd Sarvan. Ulu Borçalı, Bakı: Elm, 1998, 729 s.
5. Camal Anadolu. Erməni dosyası. İstanbul, 1982. 247 s.

6. Величко Б.Л. Кавказ и русское дело и междуплеменные вопросы, С.Петербург: Т.И.изд. М.Д.Муретовой. 1904, 375 с.
7. Мансуров Ариф. Белые пятна истории и перестройка. Баку: Язычы, 1990, 313 с.
8. «Droşaq» qəzeti, Paris: 1887. №34
9. «Bəsirət» qəzeti, İstanbul, 1918, № 219, 220

## АРМЯНСКОЕ ЗВЕРСТВО ЗА ПОСЛЕДНИЕ СТО ЛЕТ

**М.О.САДЫКОВ**

### РЕЗЮМЕ

В статье дан анализ геноцида между армяно-турецким и армяно-азербайджанским конфликтом за последние сто лет. Также эти вопросы проанализированы в изданных источниках на разных языках Евразии.

Трогательно написано о геноциде в армянских источниках. Данная проблема объективно освещена в некоторых армянских источниках. Статья актуальна тем, что в ней даны конкретные статистические данные.

**Ключевые слова:** история страны, диаспора, эмиграция, дашнакцутюн, туранизм и иранизм

## ARMENIAN ATROCITIES IN THE LAST 100 YEARS

**M.O.SADIGOV**

### SUMMARY

The article presents a brief illustration of atrocities committed by the Armenians against the Georgians and Azerbaijanis within recent 100 years.

The analysis of the author bases on Eurasian sources on the presented questions, as well as relevant works of world scientists and Armenian references.

**Key words:** Native history, diaspore, emigration, Dashnaksutun, Turanizm and Iranizm